# Barat Şəkinskaya

Sən demə onun valideynləri Sisyan rayonunun Şəki kəndindən olduqları üçün soyadlarını Şəkinski kimi götürüblərmiş. Sonralar Şuşaya köçsələr də soyadı dəyişməyiblər. Əksinə, bu soyad Şuşada o qədər məşhur olur ki, onunla fəxr də edirlər.



Yeri düşmüşkən qeyd edək ki, haqqında söhbət açdığımız korifey sənətkarımız, böyük yazıçımız Əbdürrəhim bəy Haqverdiyevin əmisi qızı Gövhər ağa Şəkinskayanın nəvəsidir.

Gəlin bir vaxt Barat Şəkinskayanın dilindən eşitdiyimiz hekayəti birlikdə dinləyək:

– Balaca qız idim. Anam əlimdən tutaraq məni insan axınından keçirib məscidin qarşısına gətirdi. Ağ paltar geyindirib kəcavəyə otuzdurdu. Saçlarımı açıb çiyinlərimə tökmüşdülər. Kəcavə hərəkət edir, qarşıda irəliləyən ağ geyimli, əli xəncərli, qırxıq başlı insanlardan ibarət dənizi seyr edib vahimələnirdim. Yadımda qalan yalnız dəhşətli səslər oldu. Oynadığım ilk səhnə isə «Şəbih» idi...

> *Əslində onun respublikamızın dilbər guşəsi Şəki ilə heç bir əlaqə və bağlılığı yox idi. Amma nədənsə hamımız onun şəkili olduğunu düşünürdük. Bu qənaətə də elə-belə gəlməmişdik. Axı onun soyadında Şəki sözü vardı. Sən demə...*

Barat xanımın uşaqlıq illəri çox çətin keçib. Onun gəlinciyi parçadan, atı isə qarğıdan olub. Atası erkən yaşında vəfat etdiyindən anası 25 yaşından dul qalıb.

– Biz nadinclik edəndə uşaqlıq illərini tez-tez xatırlayardı. Bir dəfə uşaq vaxtı yenə nadinclik etmişdik, hamımızı yanına çağırdı. Elə bildik, acıqlanıb üstümüzə təpinəcək. Amma onun gözləri uzaq bir nöqtəyə zillənmişdi. Sakitcə dayanıb nəsə deyəcəyini gözləyirdik. Birdən qeyri-ixtiyari danışmağa başladı:

– Ay mənim şirin-şəkər balalarım, sizin yaşınızda olanda istəyirdim ki, məktəbi tezcə qurtarıb, işə girim, anama kömək edim. Anamın yeganə arzusu isə övladlarını ali təhsilli görmək idi. Yay tətilində çəkilliyə gedər, barama qurdları üçün tut yarpağı yığardıq. Toxuculuq emalatxanasında sap yumarlayıb evə kömək edəndə vur-tut 10 yaşın içindəydim. Anamı sevindirmək üçün I dərəcəli məktəbi beş il əvəzinə dörd ilə bitirdim. O istəyirdi ki, rus dilini yaxşı öyrənim və gələcək təhsilimi də rusca alım. Bu məqsədlə Gəncənin ən yaxşı rus dili mütəxəssisi sayılan qocaman Sabir müəllimlə də danışmışdı. Dərsdən sonra birbaşa onun yanına getməliydim. Ancaq Sabir müəllim tutağan it saxladığından qorxudan qapısını döyə bilmirdim. Ayda bir dəfə pəncərəsini döyər, anamın verdiyi pulu ona çatdırıb var gücümlə qaçar, oradan uzaqlaşardım. Maraqlı burasıdır ki, Sabir müəllim qazanmadığı pulu götürəndə cınqırını belə çıxarmazdı. Özüm qeyrət göstərib rus dilini yaxşıca öyrəndim və rüblükdə beş aldım. Anamın sevincinin həddi-hüdudu yox idi. Utancaqlıq və qorxaqlığım ucbatından anamı aldatdığıma görə indi də özümü bağışlaya bilmirəm. Axı həmin pulu çox çətinliklə qazanardı...

Barat xanım övladlarını bu üsulla tənbeh edərdi. Bu tənbehlərin nəticəsində onun acınacaqlı keçən uşaqlıq illərini əzbər öyrənmişdik.

... Anam solaxay idi. Amma bunu heç vaxt hiss etdirməzdi. Uşaqlığında nənəm onu Pionerlər evinə aparıb tar dərnəyinə yazdırır. Hətta solaxaylığına uyğun tar da düzəltdirir. O vaxtlar Adil İsgəndərov və Süleyman Tağızadə bu dərnəkdə manqabaşçısı imişlər. Anam tar dərnəyini atıb idmanla məşğul olur...

Professional səhnəyə 1924-cü ildə gəlib. Proletariatın dahi rəhbəri vəfat edəndə Gəncədə kimsə «Lenin artıq yoxdur» adlı kiçik səhnə yazır. Qərara alınır ki, obrazlara uyğun bacarıqlı gənclər dəvət etsinlər. Məktəb-məktəb, sinif-sinif düşüb gəzirlər. Onların məktəbinə gələn iki nəfərin müşayiəti ilə direktor Möhsün Poladov (Azərbaycan SSR kənd təsərrüfatı naziri – red.) dərs vaxtı siniflərinə daxil olurlar. Şagirdləri nəzərdən keçirib öz aralarında nəsə danışandan sonra Barat xanımı göstərirlər. Möhsün müəllim deyir:

– Barat, qızım, qalx, bu adamlarla gedəcəksən...

Demə, gələnlər Gəncə qadınlar klubunun nəzdindəki həvəskarlar qrupunun rejissoru, sonralar professional aktyor olacaq Əsəd Şeyxzamanov imiş. Yaşının az olmasına baxmayaraq, Barat xanım rolunun öhdəsindən məharətlə gəlir. Özü bu haqda bizi tənbeh edərkən deyərdi:

– Düz bir il tamaşanı mahud fabrikində, islah evində, yağ zavodunda, məktəblərdə, bir sözlə, harada yüz nəfər yığışardısa, orada göstərdik. Hər tamaşadan əvvəl mitinq olur, odlu-alovlu çıxışlar edilir, ardından biz səhnəyə çıxıb məharətimizi göstərirdik...

13-14 yaşı olanda qadınlar klubunun həvəskarları ilə tamaşada çıxış etməyə başlayır. Tanınmış tənqidçi-alim Qəfər Xəndan o vaxt həvəskarlar arasında aktyorluq edirmiş.



C.Xəndanın gözəl şairliyi varmış. Anam danışırdı ki, o, yaxşı şeir yazırdı. Cəfər yaraşıqlı olduğundan qızlar ona öz yazdığı şeirlə sataşaraq «Ay daş atan bəxtəvər, daşın da bir vaxtı var», – deyərdilər.

Anam dərnəkdə fəaliyyət göstərməklə yanaşı Gəncənin Sərkar kəndində müəllimlik də edirmiş. Axşamlar tamaşada iştirak etməsi üçün onun ardınca kəndə gələrdilər. Amma o bunu anasından gizlədərdi. Çünki nənəm onun aktrisa olmasını qətiyyən istəmirdi. Arzusu qızını həkim görmək idi...

... Anamı tanıyanlar onun necə fədakar insan olmasından danışanda özlərini saxlaya bilməzdilər. İstər teatra, istərsə də dostlarına, ərinə və övladlarına qarşı etdiyi fədakarlıqlar bir kitaba sığmaz. O yalnız anası, bacı-qardaşı, övladları və dostları üçün yaşayırdı. Amma təəssüf ki, insanlara verdiyini geri ala bilmirdi. Özündəki bu xüsusiyyətləri başqalarında da axtarar, tapa bilməyəndə əhvalı pozulardı.

Qəribə xasiyyətləri vardı. Başqa aktrisalar yeməyindən və digər xərclərindən kəsib üst-başlarını zinət əşyalarıyla bəzəsələr də, o belə şeylərə əhəmiyyət verməzdi. Yaxşı məvacib almasına baxmayaraq, ömründə qızıl əşyası olmayıb; brilyant, daş-qaşı da eləcə... Hansı qadın zinət əşyasını sevməz ki? Amma o qazandığını anasına, bacı-qardaşına, övladlarına xərcləyərdi ki, onlar çətinliyin nə olduğunu bilməsinlər. Dostlarından da köməyini əsirgəməzdi. Hələ ilk gənclik illərində Adil İsgəndərov Bakıda və Moskvada təhsil alarkən ayda bir dəfə tamaşanı onun nəfinə oynayar, aktyorların payına düşən məbləği ona göndərərdi...

Hədsiz küsəyən idi. Nədən küsdüyünü özündən başqa heç kəs bilməzdi. Elə küsəyənliyinin ucbatından da sevdiyi insanları tərk edib. Hətta bu xasiyyətinə görə də teatrdan gedib bir müddət sirkdə işləməli olub.

... Mərd qadın idi. Həyat yoldaşlarından boşanarkən heç nəyin davasını etməzdi. Ərindən ayrıldığını kimsəyə hiss etdirməz, gedərkən evdən çöp də götürməzdi. Başqa yerdə yaşamaq üçün sığınacağı yalnız nənəmgil olsa da, hər dəfə qurulu evini ərinə qoyub çıxıb. Buna görə də bir neçə dəfə həyatını sıfırdan başlayıb. Sanki tərk etdiyi insanları ona xatırladacaq əşyalardan qaçırdı.

Barat xanım gözəl qadın olsa da, ailə sarıdan bəxti gətirməyib. Üç dəfə ailə qurub. Həyat yoldaşlarının hər üçü teatr xadimləri olub. Amma bu izdivacların heç biri çox sürməyib. Evliliklərinin hər birinə xitamı da özü verib. Gözləməyib ki, həyat yoldaşı ona ayrılmaq vaxtının çatdığını söyləsin...

İlk məhəbbətini də teatrda tapıb. O vaxt akyor kimi tanınan klub müdiri Mir İbrahim Həmzəyevlə evlənəndə yeniyetmə qız olub. Atam Mir İbrahim Gəncə Teatrında işləyərkən anama ilk baxışdan vurulur. Demə, Mir İbrahim əvvəllər evli olubmuş, hətta bir qızı da varmış. O çox yaraşıqlı kişi olduğundan ətrafında həmişə gözəl, qəşəng qadınlar fırlanarmış. Ancaq anamı bir gün də teatrda görməyəndə gözü dörd olar, minbir bəhanə ilə rəfiqələrindən soruşarmış:

– Bilmirsiniz Barat xanım nə vaxt gələcək?

Qızlar da onun təlaşını görüb Mir İbrahimi bir az həsrətdə qoyarmışlar:

– Bilmirik. Deyirlər anası onu teatra daha buraxmayacaq...

Beləcə, bir dəfə Mir İbrahim xəbərdən özünü itirib çaşqın vəziyyətə düşür və harasa çıxıb gedir. Az keçməmiş, Barat teatra gəlir. Qızlar deyirlər:

– Xəbərin var, Mir İbrahim sənin dərdindən dəli olub? Ay qız, dəli nədir, lap Məcnuna dönüb...

Həm atam, həm anam pərəstişkar sarıdan korluq çəkməyiblər. Mir İbrahim sevdiyi qızın ondan daha yaxşısına könül verəcəyindən qorxub. Buna görə də Barat xanımı Tiflisə qaçırıb. Heç toy da çaldırmayıblar. Evləndikləri zaman anam 16 yaşında olub. Hətta ZAQS-a getmək üçün pasportu belə yox imiş. Ona görə də nikahın kəsilməsini gözləməli olurlar.

Bir-birini sevib evlənsələr də bu evlilik bir ildən artıq sürmür. Mən dünyaya gələndən bir il sonra atam evdən soyuyur. Demə, köhnə xasiyyətindən əl götürməyibmiş. Anama bu haqda xəbər çatanda təsirlənir, kövrək qəlbi çilik-çilik olur. Ancaq xəbər gətirənlərə ərinin əleyhinə heç nə demir. Qalmaqalsız-filansız məni və paltarlarını götürüb evdən çıxır, anasıgilə daşınır. Nənəm danışardı ki, Mir İbrahim Baratın evdən getdiyini eşidəndə günlərlə pilləkənlərimizin qarşısında dayanıb ağlayardı. Lakin onun göz yaşları Barat xanımın ürəyini yumşaltmırdı, hətta o, nənəmə yalvarıb deyirmiş:

– Xala, qızının başına ağıl qoy, övladımız var, qoy qayıtsın ailəsinə...

Nənəm isə qızının tərsliyindən yalnız susarmış. Hər dəfə anamın ailəsi dağılanda nənəm deyərdi:

– Ay Barat, Mir İbrahimin səndə gözü qalıb, seyid adamdı. Cəddi səni kiminləsə xoşbəxt olmağa qoymayacaq...

İlk vaxtlar onun üçün çətin keçir. Atam da anama rahatlıq vermir, tez-tez arxasınca gəlib barışması üçün dilə tutmağa çalışardı:

– Barat, əzizim gəl tök daşı ətəyindən, gedək evimizə...

– Mir İbrahim, bu haqda söhbət qurtardı. Biz yalnız həmkarıq. Qızını ki səndən gizlətmirəm. Nə zaman istəsən onunla görüşə bilərsən...

Ancaq anam daşı ətəyindən tökmür. Akademik Dram Teatrına dəvət alanda Bakıya köçür və teatrda işə düzəlir, hətta ikinci dəfə ərə də gedir – özü də Akademik Dram Teatrının rejissoru Şəmsi Bədəlbəyliyə. Bakıya gələndən sonra çoxları anama evlənmək təklif etsə də, Barat xanım könlünü Şəmsi müəllimə verdi. Anamgil ailə quranda uşaq idim. Hətta Şəmsi müəllimi atam bilib ona «papa» deyərdim. Onun mənə olan münasibəti də ögeylikdən uzaqdı. Anamla Şəmsi müəllimin bu nikahından bacım Rövşanə dünyaya gəldi. Belə baxanda xoşbəxt yaşayırdılar. Şəmsi müəllim çox zarafatcıl idi. Bir dəfə İran səfərindən qayıdanda anama hədiyyə gətirmədiyinə görə vəziyyətdən çıxmaq üçün dedi:

– Barat, canım üçün, sənə elə şeylər almışdım ki, pəh gəl görəsən... Hər şeyi məxsusi seçmişdim, özü də yalnız sənə, Rufa üçün heç nə almamışam...

– Hanı bəs, ay Şəmsi, gözümə heç nə dəymir axı...

– Çamadanı qatarda oğurladılar...

Təbii, onun zarafat etdiyini hamımız bildiyimizdən gözlərimiz yaşaranadək gülərdik. Bir də ki İrana gedəndə onlara nə pul verirdilər hədiyyə də ala bilsinlər...

Amma anamın bu evliliyi də çox çəkmədi. Bir gün yenə əşyalarını toplayıb əlimdən tutaraq yola düzəldi – özü də Gəncəyə. Atam (Şəmsi Bədəlbəyli nəzərdə tutulur – red.) onu saxlamağa cəhd göstərsə də, Barat xanım inadkarlığından əl çəkmədi. İnadkarlıq deyəndə ki...heç ona cavab vermirdi axı. Şəmsi müəllim anamı fikrindən döndərmək üçün dedi:

– Barat, əgər fikrin qətidirsə, onda qızımı aparma. Axı sənin başqa qızın var, mənimsə yox. Rövşanə mənimlə qalacaq...

Qəribədir ki, anam onun ayrılmamaq üçün qoyduğu şərti qulaqardına vuraraq razılaşdı. Onda atam çox təəccübləndi, çünki anam üçün balasından ayrılmaqdan dəhşətli heç nə ola bilməzdi. Lakin qüruru bu istəyi büruzə verməyə qoymadı. Nənəm bu hadisədən xəbər tutanda çox pərişan oldu. Elə hey deyirdi:

– Ah gözəl Şəmsi, heyf səndən, gözəl Şəmsi...

Ancaq kimə deyirsən, anam öz bildiyini heç kimə vermirdi. Onlar o qədər sakit ayrıldılar ki, boşanmanın səbəbi bilinmədi. Yaşadığımız mənzil anamın olsa da, evi atama verdi. Eşidənlər hərəkətinə qəribə baxsalar da, Barat xanım həmin mənzilin açarını masanın üstünə qoyub çıxmışdı.

Anamın ikinci həyat yoldaşından ayrıldığını eşidən Mir İbrahim yenidən onun dalınca gəldi. Az qala, qarşısında diz çöküb yalvarırdı. Barat xanım isə yenə dediyini yeridib, etdiyini etdi. Yenidən Gəncəyə yollanıb nənəmgilə yığışdıq. Bakıdan acıq edəndən sonra burada teatrda çalışırdı. Həmin vaxt Moskvada təhsilini yenicə başa vurub qayıdan Mehdi Məmmədov Cəfər Cabbarlı adına Gəncə Dram Teatrında işləyirdi. Hamının gözü gənc, yaraşıqlı Mehdidə olsa da, onun gözü balaca qızı ilə yaşayan, Dezdemona və Cülyetta rollarının mahir ifaçısı Barat Şəkinskayanı tutmuşdu. Hətta onun niyyətinin ciddiliyindən xəbər tutanlar Mehdi müəllimin başına «ağıl» da qoyurlar:

– Mehdi, dəlisən? Barat xanım iki dəfə ərdə olub. İki qızı var. Subay oğlansan, başına qız qəhətdir?

Mehdi müəllimin cavabı isə kəskin olardı:

– Gedin öz işinizlə məşğul olun. Bu məsələnin sizə qətiyyən aidiyyəti yoxdur...

Evləndilər. Qardaşımız Elçin dünyaya gəldi. Çox zarafatcıl, istiqanlı Şəmsi müəllimdən fərqli olaraq, Mehdi Məmmədov soyuq, qaraqabaq və qaradinməz idi. Əslində, Mehdi müəllimin Gəncədən Bakıya gəlməsinin baiskarı anam idi. Çünki Mir Cəfər Bağırov eşidəndə ki, anam Gəncəyə gedib, məyus olur. Tez-tez teatrın rəhbərliyini yanına çağırıb tənqid edir:

– Niyə Barat xanım Gəncədə ilişib qalıb? Bəlkə onu incitmisiniz? Nəyə görəsə xətrinə dəymisiniz? Balaca qızı (Bağırov Barat xanımı belə çağırırdı – red.) Bakıya gətirin, özü də təcili. Lazım gələrsə, ayaqlarına düşün...

Anamı Bakıya dəvət edənlər onun qayıtmaq istəmədiyini görəndə, az qala, dəli olurdular:

– Barat xanım, neylədiyinizdir? Bağırov hamımızın atasına od vurar. Bizə yazığınız gəlsin. O elə bilir ki, bizdən incimisiniz...

– Yaxşı, siz deyən olsun. Bakıya qayıdıram, ancaq bir şərtlə: gərək Mehdini də Bakıya dəvət edəsiniz. Ərim burda, mən orda olmaz; yoxsa mənim üçün Gəncədə də pis keçmir...

– Olsun... Biz yoldaş Bağırovla da danışarıq...

Anamın ismarıcını Bağırova çatdıranda o gülümsəyib deyir:

– Balaca qızın xətrinə dəyməyin. Əlbəttə, razı olmarıq onların ailəsi iki yerə bölünsün. Mehdini də çağırın; güman edirəm ki, etimadımızı doğruldar. Səhnəmizin Dezdemonasının xətrinə dəyə bilmərik axı...

Amma Bakıya gəldikdən sonra görünməz bir əl Barat xanımın səadətinin üstündən çalın-çarpaz qara xətt çəkməyə başladı. Onun ailəsini bu dəfə də xəyanət dağıtdı. Hamı Mehdi müəllimin İya Vladimirovna ilə məhəbbət macərasından danışır, bunu anamdan gizlətmək üçün əllərindən gələni edirdilər. Barat xanım çox həssas adam idi. Təbii ki, Mehdi müəllimdə baş verən dəyişikliyi hiss etməyə bilməzdi. Elçinin üç yaşı olanda anam yenə yığışıb, evin açarlarını yenə masanın üstünə qoyub getdi və həmişəki kimi ciyərparasını – Elçini özüylə götürə bilmədi. Mehdi müəllim oğlun-



dan heç cür ayrılmaq istəmirdi. Elçinin 6 yaşı olanda yanımıza qayıtdı. Dəmə, Elçin gecə-gündüz atasına rahatlıq vermir:

– Ata, mən Baratı istəyirəm...

***Oğlunun çəkdiyi əzablara dözməyən Mehdi müəllim bir gün qardaşımızın əlindən tutub bizə gətirdi. Ay Allah, necə ətürpədici səhnəydi. Görənlərin gözü yaşarırdı. Anamla Elçin bir-birlərinə elə sarılmışdılar ki, sanki kiminsə onları yenidən ayıracağından qorxurdular. Bir-birini öpüşlərə qərq edir, sevincdən göz yaşları tökürdülər. Çox xiffət çəkdikləri hiss olunurdu.***

... Anam ərlərinin heç biriylə küsülü qalmadı. Bir də görürdün, uşaqlardan hansınınsa ad günüdür, orada Şəmsi müəllim də olardı, Mehdi müəllim də, hələ üstəlik, onların arvadları və uşaqları da. Anam günübacılarının hər biri ilə rəfiqəlik edərdi. Elə Elçinin, Rövşənənin atalarından olan bacı-qardaşlarını da doğma bilərdik.

Elçin rəhmətə gedəndə Fərhad (Bədəlbəyli – red.) bilmirdi neyləsin. Biz ağladıqca deyirdi:

– Dözün, görürsünüz mən də birtəhər dözürəm...

Yəni bizim aramızda ögey-doğma söhbəti olmayıb. Elçin qədər Fərhad da mənim qardaşımdır. Şəmsi müəllimi indiyədək atam kimi xatırlayıram.

Anamla Mehdi müəllim ayrılandan sonra həmkarları deyirlər ki, Barat xanım, yəqin, rol almağınız daha çətin olacaq. Çünki teatr anamın və Mehdi müəllimin tərəfdarları olaraq artıq iki yerə bölünmüşdü; hətta «Yağışdan çıxdıq, yağmura düşdük» tamaşasında oynayacaq aktyorların adlarının siyahısı divara vurulmazdan əvvəl rəhmətlik Mustafa Mərdanov bizə gəlmişdi. Mustafa əminin nitqi qüsurlu olduğundan danışanda kəkələyirdi. Elə kəkələyə-kəkələyə də anama dedi:

– Ba-ba-Barat, bax o siyahıda nə sən olacaqsan, nə-nənə də mə-mə-mən...

Anam onu sakitləşdirir:

– Mustafa, görərsən, vallah, siyahıda birinci bizim adımız olacaq. Mehdi sənətimizə qiymət verir. Adamlığımıza yox...

Ertəsi gün hamı siyahıya eyni fikirlə baxanda Mustafa əminin və anamın adlarını görüb təəccüblənirlər. Onlar ayrılsalar da, uzun illər eyni teatrda işlədilər. Lakin aralarında heç vaxt anlaşılmazlıq olmadı. Ən çətin anlarda belə vəziyyətdən zarafatla çıxırdılar; məsələn: «Yağışdan çıxdıq, yağmura düşdük» tamaşasında aktyorlar rollarını təbii oynasınlar deyə, Mehdi müəllim onları yanına çağırıb deyir:

– Xəstəxananın baş həkimi ilə danışmışam. Sabah hamınız dəlixanaya gedərsiniz. Orada dəliləri müşahidə edərsiniz – özlərini necə aparırlar, danışıq zamanı müsahiblərinə reaksiyaları necə olur və s. Onlara diqqətlə yanaşın ki, xasiyyətlərini götürə biləsiniz. Bir sözlə əsil dəliyə çevriləsiniz...

İki gün sonra teatrda rejissorun otağına toplaşıb əsərin oxunuşuna başlayanda Mustafa Mərdanov replika atır:

– Mehdi müəllim, Barat xanımdan başqa hamı dəlixanaya gəlmişdi...

Mehdi müəllim də söz altında qalmayıb deyir:

– Görünür, ehtiyacı yoxdur...

Yəni özü dəlidir də, dəlixanaya getmək nəyinə lazımdır? Anam da onlardan geri qalmayıb atmacaya yumorla cavab verir:

– Əlbəttə, ehtiyacım yoxdur, doqquz il dəli ilə bir yerdə yaşamışam, dəlixanada nə işim var...

Mehdi müəllim daşın onun bostanına haradan atıldığını görüb qızarır və başlayır hamı kimi gülməyə...

Anam sonuncu nikahından sonra başqasına könül vermədi. İndi o, yeganə məhəbbəti ilə baş-başa qalmışdı. Özü demişkən, ərlərindən fərqli olaraq bu məhəbbəti onu heç vaxt küsdürmədi. Sənəti bütün sevgilərdən ucada dayandı. Buna görə də məhz onun oynadığı tamaşalarda anşlaq olardı. Pərəstişkarları bir dəstə çiçəyi ona şəxsən təqdim etmək üçün dəridən-qabıqdan çıxırdılar; hətta bir dəfə yeniyetmə oğlan uşağı ona qol saatı hədiyyə edəndə anam soruşur ki, bunu haradan almısan? Oğlan çəkinə-çəkinə deyir:

– Barat xanım, saat anamındır. Çox xahiş edirəm, qoyun Sizdə qalsın...

Anam onu dilə tutub telefon nömrəsini öyrənir. Oğlanın anasına zəng edib saatı qaytarır və xahiş edir ki, yeniyetməyə bu haqda heç nə deməsin...

Pərəstişkarları arasında adi insanlardan tutmuş, Mir Cəfər Bağırov kimi nəhənglərədək var idi. O, anamın sənətinin vurğunu olduğundan oynadığı bütün tamaşaların premyeralarına gələr, özünün «Bağırov lojası»nda oturar və son səhnəyədək zalı tərk etməzdi; hətta anamın ifasında Cülyetta obrazı o qədər xoşuna gəlmişdi ki, ona Səməd Vurğun küçəsində ev də vermişdi. Elə 1948-ci ildə gənc yaşında «Xalq artisti» fəxri adını da Mircəfər Bağırovun sayəsində almışdı. Özü də bu sırf təsadüf idi. Fəxri təltiflərə təqdim edilən sənət adamlarının adlarının siyahısı imzalanmaq üçün Bağırova veriləndə baxır ki, Barat xanımın adı yoxdur. Eynəyini gözündən çıxarıb deyir:

– Bəs «Balaca qız»ın adı burada niyə yoxdur?

Sonra da cavab gözləmədən anamın adını oradaca siyahıya əlavə edir. Xəbəri radiodan eşidəndə hamının matı-mutu qurumuşdu...

... Anam çox qəribə insan idi. Bilsəydi ki, qonşusu acdır, gözünə yuxu getməzdi. Müharibənin qanlı-qadalı illərində sənət adamlarına xüsusi ərzaq «kartoçka»sı verirdilər. Bu kartoçka ilə hər gün evimizə iki kilo yarım çörək gəlirdi. Barat xanım həmin payın yalnız yarım kilosunu özümüzə saxlayıb qalanını bir neçə yerə bölərdi. Mən bu çörək tikələrini, eləcə də digər ərzaqları qonşulara paylardım.

***Mütaliəni hədsiz sevərdi. İşıq olmayan vaxtlarda çıraq, şam işığında oxuyardı. Klassikanı əzbər bilirdi. Sinədəftər idi. Bir də görürdün, söz soruşurdun, təbi gəldi, cavabı şeirlə, qəzəllə verirdi. Son illər xəstəlik əhədini kəssə də, kimsəyə yük olmazdı. Özünü gümrah göstərməyə çalışardı. Bu dünyadan köçünü yarım saatın içində çəkdi. Kimin ağlına gələrdi?.. Ölümündən iki gün əvvəl haqqında veriliş hazırlamışdılar.***

Ömrünün son illərində həmkarları və rəfiqələri dünyalarını dəyişdikcə əhvalı pis olurdu. Özü demişkən, xatirələr sorağında çəkilmişdi hücrəsinə. Arabir ötən günlərini yada salıb deyirdi: «Ötən günə gün çatmaz, calasan günü-günə...»

**S.HƏMZƏYEVA**